https://doi.org/10.59849/2710-0820.2026.1.260

**Vəli Baxşəliyev**
*AMEA Naxçıvan Bölməsi, Naxçıvan Dövlət Universiteti*
*velibahshaliyev@mail.ru*

**Elmar Baxşəliyev**
*AMEA Naxçıvan Bölməsi*
*elmarbakhshaliev@gmail.com*

# UBEYD MƏDƏNİYYƏTİNİN ŞİMALA YAYILMASI İLƏ BAĞLI YENİ FAKTLAR

## Giriş

Yaxın Şərq ölkələri ilə Cənubi Qafqaz arasındakı iqtisadi-mədəni əlaqələr uzun illərdir ki, tədqiqatçıların diqqətini cəlb etməkdədir. Cənubi Qafqazın Neolit yaşayış yerlərində aşkar olunan tapıntılar bu əlaqələrin Neolit dövründən mövcud olduğunu təsdiq etsə də Eneolit dövründə bunu izləmək mümkün olmamışdır. XXI əsrin əvvəlində Aruxlo, Şomutəpə, I Kültəpə və digər yaşayış yerlərinin Neolit dövrünə aid edilməsiylə Cənubi Qafqazda Son Neolitlə Son Eneolit arasında boşluğun yaranmasına səbəb olmuşdur. Ancaq son zamanlar Azərbaycanda, Naxçıvanda aşkar olunan Erkən Eneolit dövrünə aid Uçan Ağıl, Naxıvantəpə və Bülövqaya kimi yaşayış yerləri bu boşluğu doldurmaqla Cənubi Qafqazla Mesopotamiya arasındakı əlaqələrin davam etdiyini deməyə imkan verir. Cənubi Qafqazın Yaxın Şərqlə əlaqələri ilə bağlı olduqca müxtəlif fikirlər söylənmişdir. Bəzi tədqiqatçılar Cənubi Qafqazın Neolit mədəniyyətinin köç yolu ilə Yaxın Şərq ölkələrindən gəldiyini (Ахундов, 2019, s. 98; Массон, 1964, s. 407), digərləri ilə isə Xalaf tipli keramikanın Cənubi Qafqaza iqtisadi-mədəni əlaqələr nəticəsində yayıldığını söyləmişlər (Бахшалиев, 2022, s. 139). Ancaq bu əlaqələrin necə baş verdiyi kifayət qədər aydınlaşdırılmamışdır. Bəzi tədqiqatçılar bu əlaqələrin Mesopotamiya tayfalarının qonşu ölkələrdə yaratdıqları koloniyalar vasitəsi ilə həyata keçirildiyini qeyd etmişlər (Özfırat & Marro, 2007, s. 1-20). Ancaq Cənubi Qafqazda Son Neolit və Son Eneolit arasında boşluq olduğundan Son Eneolit abidələrində isə Mesopotamiya mənşəli keramika az tapıldığından Eneolit dövründə bu bölgədə Mesopotamiya ilə əlaqələri ardıcıl izləmək mümkün olmamışdır. Uçan Ağıl və Naxçıvantəpədəki tək tək tapıntılar da geniş nəticələr çıxarmağa imkan vermirdi. 2024-2025-ci illərdə Bülövqaya yaşayış yerində xeyli boyalı keramikanın aşkar olunması, keramika məmulatının forma və bəzəmə motivi baxımından Ubeyd keramikası ilə bənzər olması Cənubi Qafqazla Mesopotamiya arasındakı əlaqələrin dəyərləndirilməsini yenidən gündəmə gətirmişdir.

Naxçıvanın Erkən Eneolit yaşayış yerləri. Urmiya hövzəsində və Şərqi Anadoluda Erkən Eneolit dövrünə aid abidələrin varlığı təsbit edilsə də son zamanlaradək bu mərhələ Cənubi Qafqazda aşkar olunmamışdı. Azərbaycanın Naxaçıvan bölgəsində 2010-cu ildən başlayaraq aparılan arxeoloji araşdırmalar zamanı Erkən Eneolit dövrünə aid üç yaşayış yeri aşkar edilmişdir. Bu yaşayış yerləri Son Neolitlə Son Eneolit arasındakı kəsintini öyrənmək üçün olduqca əhəmiyyətlidir. Bu dövrə aid olan Uçan Ağıl, Naxçıvantəpə və Bülövqaya yaşayış yerlərinin keramika məmulatı bir-birindən fərqli mədəniyyətləri əks etdirsə də Yaxın Şərqlə əlaqələri öyrənmək baxımından əhəmiyyətlidir (Şəkil 1).

**Uçan Ağıl.** Uçan Ağıl yaşayış yeri Babək rayonunun Sirab kəndindən şimal-şərqdə yerləşir.Uçan Ağıl yaşayış yerində 2015-2021-ci illərdə V.Baxşəliyev və K.Marronun rıhbərliyi ilə 5x10 metrlik iki və 10x10 metrelik bir sahədə qazıntı aparılmışdır (Бахшалиев, 2017, s. 108-121). Mədəni təbəqənin yerin relyefindən asılı olaraq 0,5-1,8 m arasında yığıldığı müəyyən edilmişdir. Tədqiqat zamanı Eneolit təbəqəsinin müxtəlif yerlərdə Erkən Tunc dövrü çu-

xurları ilə kəsildiyi bəlli olmuş, Eneolit dövrünə aid memarlıq qalıqları aşkar olunmamışdır. Ancaq yaşayış yerinin alt təbəqəsində qeydə alınan çoxsaylı dirək yerləri Uçan Ağıl sakinlərinin dirəklər vasitəsi ilə qurulmuş, dördkünc formalı yüngül konstruksiyalı evlərdən istifadə etdiyini göstərir. Keramika məmulatı sadə (Şekil 2, 1-4, 8-11, 7, 12-13), relyef naxışlı (Şəkil 2, 5, 6) və boya naxışlı (Şəkil 3, 1-3) olmaqla üç qrupa bölünür. Sadə keramika məmulatı üstünlük təşkil edir (Şəkil 2). Keramika məmulatı küpə və kasa tipli qabların parçalarından ibarətdir. Kasa tipli qabların qabarıq və bikonik gövdəli olmaqla müxtəlif tipləri vardır. Qabların ikisi məməcikşəkilli çıxıntı, biri isə relyef kəmər üzərindən barmaq basqısı ilə naxışlanmışdır (Şəkil 2, 5, 6). K.Marro Uçan Ağıl keramikasını üç qrupa ayıraraq Neolit, Erkən və Son Eneolit dövrünə aid etmişdir (Marro, 2021, s. 111-130). Aşkar olunan keramika parçaları arasında basmanaxışlı bir neçə keramika parçası xüsusilə diqqəti cəlb edirdi (Şəkil 3, 1). Bu tip basmanaxışlı keramika başlıca olaraq Dalmatəpə mədəniyyəti üçün xarakterikdir. Uçan Ağılın basma naxışlı və boyalı keramikası Urmiya hövzəsində yayılan Dalmatəpə mədəniyyətinin, bəziləri isə Ubeyd mədəniyyətinin təsirini əks etdirir. Ancaq Uçan Ağılda Ubeyd boyalıları və Dalmatəpə basma naxışlıları tək tək nümunələrlə təmsil edilmişdir. Uçan Ağılda aşkar olunan çoxsaylı saman qatqılı sadə keramika Neolit dövründə yayılan Kültəpə mədəniyyətinin davamı kimi görünür.




**Şəkil 1. Bölgənin xəritəsi və Naxçıvanın Eneolit yaşayış yerləri**

**Nahçıvan Təpə.** Naxçıvantəpə yaşayış yeri Uçan Ağıldan güneydə, Naxçıvan şəhərinin şərqindən axan Naxçıvançayın sağ sahilndə, dəniz səviyyəsindən 853 m yüksəklikdə yerləşir. Yaşayış yerində 2017-2021-ci illər arasında Vəli Baxşəliyevin rəhbərliyi ilə AMEA Naxçıvan Bölməsinin arxeoloji ekspedisiyası tərəfindən tədqiqat aparılmışdır. Qazıntılar başlıca olaraq sahəsi 10x10 m olan beş sahədə aparılmışdır. Tədqiqat zamanı e. ə. 5200-4500-cü illəri əhatə edən dörd tikinti qatı aşkar edilmişdir. Bu tikinti qatlarının üçü Dalmatəpə mədəniyyətinə (Бахшалиев, 2017, s. 108-12; Bakhshaliyev & Bakhshaliyev, s. 14-23), dördüncü isə Neolit dövrünə, Dalmatəpə mədəniyyətinin formalaşdığı dövrə aiddir. Bu yaşayış yerinin ilk tikinti qatı üçün yarımqazma tipli evlər, digərləri üçün isə dördkünc formalı kərpic tikintilərlə təmsil edilmişdir. Ancaq kərpiclərin ölçüsünü müəyyən etmək mümkün olmamışdır. Naxçıvantəpə-

nin keramika məmulatı səkkiz qrupa ayrılarak araştırılmıştır. Naxçıvantəpədən aşkar olunan keramika məmulatının bütün qrupları Dalmatəpə mədəniyyəti üçün xarakteriktir (Şəkil 4). Bu qruplar arasında Dalmatəpə mədəniyyətinin xarakterik özəlliyini əks etdirən barmaq basqısı və müxtəlif alətlərin basqısı ilə naxışlanmış keramika mühüm yer tutur. Dalma tipli baskı bezemeli keramikanın Neolit dövründə Egey dənizi hövzəsində (Çilingiroğlu, 2010, s. 9-22; Özdoğan, 2013, s.167-269) və Avropada yayılan Çtarçevo mədəniyyətdən fərqli olduğu söylənmişdir (Bakhshaliyev & Bakhshaliyev, s. 23-24). Bununla birlikdə tədqiqatçılar Nahçıvantəpənin bəzı keramikasını Xalaf-Ubeyd tipli keramika qrupuna aid edərək bunların idxal malı olduğunu söyləmişdir (Вахшалиев və d., 2024, s. 15). Bunlar arasında sarı fonda qara rənglə naxışlanmış Ubeyd boyalıları da vardır (Şəkil 4, 12-15). Ancaq qeyd etməliyik ki, Naxçıvantəpədə boyalı keramika az aşkar olunmuşdur. Bu tip keramikanın Dalma tayfaları tərəfindən də gətirildiyi söylənə bilər. Ancaq Bülövqaya yaşayış yerindən aşkar olunan keramika, Ubeyd mədəniyyəti üçün xarakterik olan boyalı keramikanın qonşuların araçılığı ilə deyil, birbaşa Ubeyd tayfaları tərəfindən gətirildiyini deməyə imkan verir.



**Şəkil 2. Uçan Ağılın sadə və qabartma bəzəkli keramikası**

**Bülövqaya.** Bülövqaya yaşayış yeri, Naxçıvanın şimalında, Uçan Ağıldan şimal-şərqdə, Babək rayonunun Göynük kəndi yaxınlığındadır. Yaşayış yeri Sarısu şayının sol kənarından, dəniz səviyyəsindən 1430-1450 yüksəklikdə yerləşir. Yayayış yerində 2024-2025-ci illərdə Vəli Baxşəliyevin rəhbərliyi ilə ölçüsü 10x10 m olan yeddi sahədə arxeoloji qazıntılar aparılmışdır. Araşdırmalar zamanı yaşayış yerində rəng baxımından bir-birindən fərqlənən iki fərqli təbəqənin olduğu müəyyən edilmiştir. Birinci təbəqənin qalınlığı topoqrafiyaya bağlı olaraq 0,3-09 m arasındadır. İlk təbəqədə ocaqlar aşkar olunmamış, ancaq keramika parçaları və heyvan sümüklərindən ibarət çox sayda tapıntı əldə edilmişdir. Yalnızca izləri qalan çadırların yeri yuvarlak dirək dəliklərinə görə müəyyən edilmişdir. Birinci təbəqədə ocaq olmadığından, dolğudan götürülən kömür nümunəsinin analizi e.ə. 4508-4353-cü illəri göstərmişdir (3, s. 43, tablo 1). Ən aşağıda yerləşən ikinci təbəqə ana torpaqdan başlayaraq 0,3-0,6 m qalınlığında toplanmışdır. Bu təbəqədə də dördkünc formalı çadırların izləri dirək dəliklərinə və döşəmə izlərinə əsasən müəyyən edilmişdir. Araşdırma zamanı evlərin təsərrüfat həyətlərinin ətrafında qurulduğu müəyyən edilmiş. Təsərrüfat həyətlərində ocaqların, torpağa basdırılmış küplərin və keramika sobalarının qalıqları aşkar olunmuşdur. Bu təbəqədən götürülən kömür nümunəsinin analizi e.ə. 5007-4723-cü illəri göstərmişdir (Bahşaliyev və d. 2024, s. 43, tablo 1). Bülövqaya yaşayış yerinin keramikası dörd qrupa ayrılaraq araşdırılmışdır (Bahşaliyev və d. 2024, s. 17-19). Keramika məmulatının 69,6%-i, sədə keramika, 27,4%-i boyalı keramika, 2%- qəhvəyi rəngli keramika, 1%-i qara rəngli keramikadır. Bülövkaya yaşayış yerinin keramikası forma və naxış motivi baxımından Ubeyd mədəniyyətinin keramikasını xatırlatmaktadır (Şəkil 5). Bu baxımdan 2025-ci ilin qazıntıları zamanı aşkar olunan keramika nümunələri xüsusilə diqqətəlayiqdir. Buna görədə ilk öncə Ubeyd mədəniyyəti üçün xarakterik olan keramika nümunələrinin nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirik.




**Şəkil 3. Uçan Ağılın boyalı və basmanaxışlı keramikası**

**Bülavqayanın keramika məmulatı.** Yuxarıda qeyd etdiyimiz kimi, Bülövqaya keramikasının əksəriyyəti sadə və boyalı keramikadan ibarətdir. Çölmək tipli qablar azdır. Bu tip qablar qısa, yana qatlanmış ağız kənarlı və qabarıq gövdəlidir. Sadə keramikanın çoxu kasa tipli qablardan ibarətdir. Sadə keramikanın əksəriyyəti kasa tipli qablar qablardan ibarətdir. Bu qabların ən sevilən tipləri gövdəsi ağız hissədə bir qədər içəri yığılan qabarıq gövdəli kasalardır (Şəkil 6, 2). Onların bəzisi qabarıq, bəzisi isə silindrik-qabarıq formalıdır (Şəkil 6, 1). Belə qabların boyalıları Tell Abadanın Ubeyd 3 dövründən (Jasim, 2021, fig. 218, 2-5), Tell Arpaçiyanın Ubeyd təbəqəsindən (Mallowan & Cruikshank, fig. 16, 1-4) məlumdur. Urmiya hövzəsində Seh Gabidə (Henricson, 1983, fig. 42, 6; fig. 70, 55.1), Çoga Maranda (Henricson, 1983, fig. 108, 1-4) olan bu tip kasalar bikonik olmaları ilə fərqlənirlər. İkinci tip kasalar qabarıq gövdəli olub, ağız kənarları xaricə doğru qatlanmışdır (Şəkil 6, 4). Bu tip qabların boyalıları Tell Abadanın Ubeyd 3 dövründən (Jasim, 2021, fig. 281, 6, 8) və Tell Arpaçiyanın Ubeyd təbəqəsindən (Mallowan & Cruikshank, fig. 33) çox sayda tapılmışdır. Bəzi qabların silindirik lüləyi var (Şəkil 6, 8).Üçüncü tip kasalar qabarıq gövdəli olub, ağzının kənarı xaricə doğru qalınlaşdırılmışdır (Şəkil 6, 10). Bu tip qablar Tell Abaddan (Jasim, 2021, fig. 272) məlumdur. Lakin Bülövqaya nümunələri Ubeyd nümunələrini tamamilə təkrar etmir. Ola bilsin ki, bu tiplər Ubeyd kasalarına bənzədilərək hazırlanmışdır. Dördüncü tip kasalar konusvari gövdəlidir. Onların gövdəsinin mərkəzi hissəsi xaricə doğru çıxıntılıdır. Bu tip qablar arxeoloji ədəbiyyatda *cream-bowls* olaraq tanıdılmışdır (Şəkil 6, 9). Bu tip qapların en qədim nümunələri Sabi-Abyad (Akkermans, 1987, fig. 4, 10; Akkermans, 1989, fig. IV. 28, 204) və Tell Arpaçiya’nın (Mallowan & Cruikshank, fig. 54, 4) Halaf təbəqəsindən aşkar olunmuşdur. Bu tip kasalar Yarım Tepe II (Amirov, 2018, fig. 7, 1, 3; Merpert & Munchaev, 1987, 1987, fig. 19, 3-4), Tell Agab (Davidson & Watkins, 1981, fig. 2, 4) ve Tülintəpənin Ubeyd təbəqəsindən məlumdur (Esin & Arsebuk, 1971, s. 121; Esin & Arsebuk, 1982, s. 91). Beşinci tip kasalar konusvari gövdəlidir (Şəkil 6, 7). Bu tip qablar Urmiya hövzəsində Seh Gabi, Çoga Maran kimi yaşayş yerlərində (Henricson, 1983, fig. 107, 6-9), həmçinin Ubeyd mədəniyyəti abidələrində geniş yayılmışdır. Sadə keramika məmulatı arasında buynuzşəkilli qulplar da vardır. Qeyd edək ki, bu tip qulplar Dalmatəpə mədəniyyətində geniş yayılmış, lakin Ubeyd mədəniyyətində çox az görülmüşdür. Bu grupdakı keramikanın az bir qismi qabartma bəzəməlidir. Bunlar başlıca olaraq qabların gövdəsini əhatə edən relyef kəmər üzərindən barmaq basqısı və çərtmələrlə bəzəməli olanlardır. Məməcik şəkilli relyef bəzəmələr də vardır.




**Şəkil 4. Nahçıvantəpənin basmanaxışlı və boyalı keramikası**

Bülövqayada çoxluq təşkil edən ikinci qrup keramika boyalı keramikadır. Boyalı keramikanın ən çox sevilən naxış motivi bir-birinin üzərində yerləşdirilmiş üçbucaqlardır. Lakin düz xətlər, sınıq xətlər, sünbülşəkilli rəsimlər və yuvarlaq dairə rəsimləri də vardır. Çömləklər az sayda tapılmışdır. Bu tip qablar yalnız ağız kənarının parçaları ilə təmsil edilmişdir. Sadə keramikada olduğu kimi boyalılarda da ən sevilən tiplər qabarıq gövdəli, ağızda bir qədər içəri yığılmış kasalardır (Şekil 7, 1-4). İkinci tip kasalar silindrik-qabarıq gövdəlidir (Şekil 7, 5-7). Bu tip boyalı kasaların bənzərləri Ubeyd mədəniyyəti abidələrindən Tell Abadanın Ubeyd 3 dövründən (Jasim, 2021, fig. 218, 2-5), Tell Arpaçiyanın Ubeyd təbəqəsindən (Mallowan & Cruikshank, fig. 16, 1-4) məlumdur. Urmiya hövzəsində Çoqa Maran (38, fig. 107, 14-19), Seh Gabi B (Henricson, 1983, fig. 61, 53.1, 53.2) yaşayış yerindən tapılanlar bir qədər fərlidir. Üçüncü tip kasaların gövdəsi qabarıq olub, ağzının kənarı xaricə qatlanmışdır (Şekil 7, 8). Bu tip kasaların sadə nümunələri Urmiya hövzəsi yaşayış yerlərində çox olsa da, onların byalılarına az rastlanır. Bunlar Seh Gabi B-dən məlumdur (Henricson, 1983, fig. 73, 13). Bu tip qablar Tell Abadanın Ubeyd 3 dövründə olan qablarla çox bənzərdir (Jasim, 2021, fig. 281, 6, 8). Bülövqayada dördüncü tipə aid konusvari gövdəli kasaların olduqca müxtəlif tipləri vardır (Şekil 7, 9). Bu tip kasalar Seh Gabi B, Çoqa Maran, Təpə Siahbid (Henricson, 1983, s. 223-430), Tell Abadanın Ubeyd 3 dövründən (Jasim, 2021, fig. 194, 1-9) və Tell Arpaçiyanın Ubeyd təbəqəsindən (Mallowan & Cruikshank, fig. 32) məlumdur. Konusvari gövdəli kasaların bir qrupunun ağzının kənarı xaricə doğru qalınlaşdırılmışdır. Qeyd edək ki, bu tip ağız kənarları Urmiya hövzəsi abidələrində, o cümlədən Dalmatəpə mədəniyyətində heç görülməmişdir. Beşinci tipə konusvari gövdəli *cream-bowls* tipli kasalar aiddir. Bu tip qabların içərisi həndəsi motivdə naxışlanmışdır.

**Ubeyd mədəniyyətinin Urmiya hövzəsi və Şərqi Anadoluya yayılması.** Mesopotamiyada formalaşan Ubeyd mədəniyyətinin Ubeyd 3 və Ubeyd 4 dövründə qonşu ölkələrə yayıldığı düşünülməkdədir. Araşdırmalar göstərir ki, şimala doğru yayıldığı zaman Ubeyd mədəniyyəti yerli mədəniyyətlərlə qarşılıqlı təsirdə ol-

muşdur. Urmiya hövzəsində Təpə Siyahbid (Henricson, 1983, s. 337-338), Çoqa Maran (Henricson, 1983, s. 600), Seh Qabi (Henricson, 1983, s. 200), Qodin Təpə (Henricson, 1983, s. 172-176), Dalmatəpə (Voigt, 1987, s. 621; Hamlin, 1975, fig. 10, I) və Təpə Qavra (Voigt, 1987, s. 621) kimi yaşayış yerlərində Ubeyd keramikası Dalma keramikası ilə birlikdə tapılmışdır. Tədqiqatçılar bunu Dalmatəpə mədəniyyətinin Ubeydlə əlaqəsi kimi izah etmişlər (Henricson, 1983, s. 100; 50, s. 621). Dalmatəpə mədəniyyəti üçün xarakterik olan basmanaxışlı keramikanın Mesopotamiyada Tell Abad, Tell Rəşid, Keit-Qasım, Haysalon (Jasim, 2021, s. 19-97), Surehza (Alden et al., 2021, s. 1-23) kimi yaşayış yerlərində Ubeyd keramikası ilə birlikdə tapılması da bu əlaqələrin olduğunu göstərir. Urmiya hövzəsi yaşayış yerlərinin tədqiqi Dalmatəpə keramikası ilə Ubeyd keramikasının eyni yaşayış yerlərində tapılması (Henrickson & Vitali, 1987, s. 37-45), bu mədəniyyətlərin qarşılıqlı əlaqəsini göstərir.




**Şəkil 5. Bülövqayanın Ubeyd tipli keramikası**

Şərqi Anadoluda Çolpan (Marro, 2007, fig. I, 1), Yumuktəpə (Caneva, Palumbi & Pasquino, 2012, s. 353-392), Domuztəpə (Campbell & Fletcher, 2006, s. 72, fig.5, 2), Dəyirmantəpə (Esin & Arsebük, 1983, s. 71-80; Esin 1984, s. 11-30), Gəlinciktəpə, Arslantəpə (Balossi-Restelli, 2012, s. 235-260), Təpəcik, Tülin Təpə (Esin & Arsebuk, 1982, resim 91) ve digər yaşayış yerlərində əldə edilən Ubeyd dövrünə aid tapıntılar da qarşılıqlı təsirin olduğunu göstərməktədir. U. Esin və G. Arsebük tapıntılara əsalanaraq Dəyirmantəpəni Ubeyd xüsusiyyətlərinin əks olunduğu yaşayış yeri kimi xarakterizə etmişdir (Esin & Arsebük, s. 78-79).

Bülövqaya keramikasının mədəni mənsubiyyəti. Araşdırmalar göstərir ki, e. ə. VII-V minilliklərdə Azərbaycanın cənub rayonlarında, xüsusilə Naxçıvanda mürəkkəb sosial-iqtisadi proseslər baş vermişdir. E. ə. VII minilliyin sonu və VI minilliyin əvvəlində Naxçıvanda I Kültəpə yaşayış yerindən Xalaf tipli keramika aşkar olunmuşdur (Абибуллаев, 1982, s. 65-77; Бахшалиев, 2022, s. 149). E. ə. Viminilliyin sonu və V minilliyin əvvəlində isə Naxçıvanda Dalmatəpə mədəniyyəti yayılmışdır (Бахшалиев, 2019a, s. 114-128; Бахшалиев & Бахшалиев, 2021, s. 187-197). Şübhəsiz ki, Ubeyd mədəniyyətinin şimala doğru yayılması yerli mədəniyyətlərə təsir etmişdir. Bu təsir Dalmatəpə mədəniyyətində də özünü göstərir. Tədqiqatçılar yerli mədəniyyətlərin və Ubeyd mədəniyyətinin bir-birinə nüfuzunun dinc xarekterdə olduğunu söyləmişlər (Stein, 2012, s. 23-44). Belə hesab edirik ki, Ubeyd mədəniyyətinin Şərqi Anadolu və Urmiya hövzəsinə yayılması bu mədəniyyətin qərbə və şimala doğru yayılması ilə bağlı olmuşdur. Ancaq qeyd etmək lazımdır ki, Urmiya hövzəsində Erkən Eneolit dövründə ortaya çıxan boyalı keramikaya Ubeyd mədəniyyətinin təsiri qeyd edilsə də bu keramika əsasən Dalma boyalıları kimi xarakterizə edilmişdir. Bəzi tədqiqatçılar e. ə. V minilliyin ikinci yarısında Son Eneolit dövründə Culfa Kültəpə (Abedi və d., 2014a, s. 33-167), Təpə Sarsaktı (Abedi və d., 2014b, s. 101-114) və digər yaşayış yerlərində ortaya çıxan boyalıları Dalmatəpə mədəniyyəti ilə bağlayaraq Dalma boyalıları adlandırmışlar. Ancaq Yaxın Şərq abidələrinin tədqiqi Dalmatəpə mədəniyyətinin e. ə. V minilliyin ortalarında tarix səhnəsindən çıxdığını göstərir. Digər tərəfdən Dalmatəpə mədəniyyəti üçün xarakterik olan basma naxışlı (*impression*), kırmızı astarlı kera-

mika (*red slipped*) bu yaşayış yerlərində aşkar olunmamışdır. Bülövqaya yaşayış yerinin boyalı keramikası sarı fonda qara (*black on buff*) və qırmızı fonda qara (*black on red*) rənglə naxışlanmış keramika ilə xarakterizə olunur.



**Şəkil 6. Bülövqayanın sadə keramikası**

Qeyd etmək lazımdır ki, keramika məmulatının əksəriyyəti sarı üzərindən qara rənglə naxışlanmışdır. Qırmızı astarlı və qırmızı üzərindən qara rənglə naxışlanmış keramika Urmiya hövzəsində Neolit və Eneolit dövründə geniş yayılmışdır (Abedi, Omrani & Karimifar, 2015, s. 23-40). Urmiya hövzəsinin keramikasında görülən buynuzşəkilli qulplar da Bülövqayada vardır. Buna görə də deyə bilərik ki, Bülövqaya keramikasına Urmiya hövzəsinin mədəniyyəti təsir etmişdir. Ancaq Bülövqaya yaşayış yerində Urmiya hövzəsində (Henricson, 1983, s. 203) və Dalmatəpədə (Hamlin, 1975, s.111-127) yayılan basma naxışlı (*impression*) keramika yoxdur. Digər tərəfdən Bülövqayanın keramika məmulatı Urmiya hövzəsi keramikasından daha çox Ubeyd mədəniyyətinin keramikası ilə bənzərlik göstər. Ancaq Bülövqaya keramikasında Ubeyd mədəniyyətinin güclü təsiri özünü göstərmişdir. Bülövqaya keramikası xüsusilə Ubeyd 3 və Ubeyd 4 dövrünün keramikası ilə bənzərdir. Bülövqayada aşkar olunan bəzi tiplər isə Dalmatəpə mədəniyyəti yaşayış yerlərində, o cümlədən Bülövqayanın yaxınlığında olan Naxçıvantəpədə yoxdur. Buna görə də belə hesab edirik ki, Bülövqayada Dalmatəpə mədəniyyətindən fərqli bir mədəniyyət mövcuddur. Bu mədəniyyətin harda formalaşdığını indi söyləmək çox çətindir. Böyük ehtimalla bu mədəniyyət Urmiya Hövzəsi və Şərqi Anadolunun sərhədlərində formalaşmışdır. Ancaq bu mədəniyyətin Bülövqayada görünməsi bu tayfaların köçmə maldarlıqla məşğul olduğunu və Naxçıvana doğru hərəkət etdiyini göstərir. Bu qəbilələrin şimala doğru hərəkəti Cənubi Qafqazın bol otlaqları, mis və obsidian yataqları ilə bağlı olmalı idi.



**Şəkil 7. Bülövqayanın boyalı keramikası**

**Təbii qaynaqlar.** Araştırmalar göstərir ki, Cənubi Qafqazın müxtəlif faydalı qazıntılarla o cümlədən mis və obsidianla zəngindir. Naxçıvanın Erkən Eneolit abidələrində mis əşyalar tapılmasada Naxçıvantəpə, Uçan Ağıl və Bülövqayada mədənçilik alətlərinin tapılması, həmçinin Naxçıvantəpədən tapılan mədənçilik

alətlərinin birində mis oksidinin izlərinin qalması bu dövrdə mis emalının olduğunu təsdiq edir (Bakhshaliyev, 2021, s. 384, fig. 10). Tədqiqatlar göstərir ki, Neolit dövründə Yaxın Şərq ölkələrində başlıca olaraq Şərqi Anadolu obsidianından istifadə edilsə də, e. ə. VI minilliyin sonlarından başlayaraq Qafqaz obsidianından da istifadə olunmuşdur (Barge ve d. 2018, s. 310-311). Dalmatəpə dövründə Urmiya hövzəsində Zəngəzur və Göyhasar obsidianı üstünlük təşkil etmişdir (Abedi və d. 2018, s. 763). Erkən Eneolit dövründə Naxçıvanda məskən salan qədim tayfalar başlıca olaraq Zəngəzur, Goyçə (Sevan) və Şərqi Anadolu obsidianından istifadə etmişlər (Бахшалиев & Бахшалиев, 2021, s. 189-191). Bu baxımdan Naxçıvanın Erkən Eneolit yaşayış yerləri bir birindən fərqlənirlər. Belə ki, Naxçıvantəpədə Zəngəzur obsidianı 42%, Göyhasar 37%, Meydandağ 19% olmuşdur (Orange ve d., 2021, s. 129). Uçan Ağılada isə Zəngəzur obsidianı 86 % olmuş, qismən isə Göyhasar obsidianından istifadə olunmuşdur. Bülövqaya yaşayış yerində də başlıca olaraq Zənzəzur obsidianından istifadə olunmuşdur. Bülövqaya obsidianlarının az bir qismi Meydandağdan gətirilmişdir.

**Xronologiya.** Bülövqaya yaşayış yerinin boyalı keramikasınıTell Arpaçiyanın Ubeyd təbəqəsinin materialları ilə müqayisə etmək olar (Mallowan & Cruikshank, 1933, fig. 3-7). Onlar həmçinin Tell Abada (Jassim, 2021, fig. 273, 4-8) və Tell Raşidin (Jassim, 2021, fig. 447, 5-8) Ubeyd 2 və Ubeyd 3 dövrünün materialları ilə bənzərdir. Bu həmçinin Bülövqayanın sadə keramika məmulatına aiddir (Jassim, 2021, fig. 370). Bülövqayanın kasa tipli qabları, ağız kənarı xaricə doğru qalınlaşdırılmış (Jassim, 2021, fig. 272) və silindirik lüləkli qablar da Tell Abadadan (Jassim, 2021, fig. 334) məlumdur. Radiokarbon analizlırin nəticələri Tell Abadanın II təbəqəsinin e.ə. 4670 ± 70-ci ilər ilə tarixləndiyini (Jassim, 2021, p. 100), Tell Madurun bu dövrə aid təbəqəsi isə e. ə. 4470 ± 80-ci illərə (Roaf, 1982, p. 41) aid olduğunu göstərir. Bülövqayada üst təbəqədən götürülən karbon nümunənin analizi e. ə. 4508-4353-cü ili, alt təbəqədən götürülən karbon nümunələrdən birinin analizi e.ə. 4953-4723-cü ili, digəri isə e. ə. 5007-4782-ci ili göstərmişdir (Cədvəl 1). Bu dövr Uçan Ağılda e. ə. 4600-4350-ci ili (Marro, 2022, p. 111-130), Uzunobada e. ə. 4620-4370-ci ili (Baxşəliyev & Baxşəliyev, 2023, s. 9-34) göstərmişdir. Ubeyd tipli keramika həmçinin Naxçıvantəpədən məlumdur (Baxşəliyev & Baxşəliyev, 2023, s. 64, fig. 12, 12-15). Naxçıvantəpənin bu təbəqəsindən karbon nümunələrdən birinin analizi e.ə. 4945-4722-cü ili, digəri e. ə. 4686-4464-cü ili (Baxşəliyev & Baxşəliyev, 2023, s. 34, tablo 1) göstərmişdir. Ubeyd mədəniyyətinin Urmiya hövzəsinə nüfuzu da e. ə. V minilliyin birinci yarısı ilə tarixləndirilə bilər. Bu faktlara baxıldığında deyə bilərik ki, Bülövqa yaşayış yeri e. ə. V minilliyin birinci yarısına aiddir. Onu da qeyd etmək lazımdır ki, e. ə. V minilliyin ikinci yarısında Naxçıvanda Ovçulartəpə yaşayış yerindən yaxşı bilinən Son Eneolit dövrü mədəniyyəti yayılmışdır. Urmiya hövzəsində də oxşar hadisə baş vermişdir. Buna görə də deyə bilərik ki, Urmiya hövzəsində Ubeyd mədəniyyəti ilə qarşılıqlı təsir e. ə. V minilliyin birinci yarısında baş vermişdir. Bu mədəniyyətin Bülövqayaya yayılması da həmin dövrə aid etmək olar.

**Dəyərləndirmə.** Naxçıvanın Eneolit dövrü yaşayış yerlərinin araşdırılması e.ə. VI minilliyin sonu, V minilliyin əvvəllərində burada fərqli mədəniyyətlərin formalaşdığını təsdiq edir. Əgər biz Uçan Ağılda Neolit dövründən bu bölgədə olan Kültəpə mədəniyyətinin davamını görürüksə, Naxçıvantəpə yaşayış yerində Dalmatəpə mədəniyyətinin yayılmasının şahidi oluruq. Bülövqaya yaşayış yerində isə Ubeyd mədəniyyətinin güclü təsiri hiss olunmakdadır. Urmiya hövzəsi ve Mesopotamiyadakı bu dövrə aid yerlərinin araşdırılması Dalmatəpə və Ubeyd tayfalarının iç-içə yaşadığını və bir-birlərinə təsir etdiyini göstərir. Bu baxımdan Urmiya hövzəsinin yaşayış yerlərində Ubeyd boyalılarının olduğu dəsdiq edilsə də, Dalmatəpə mədəniyyətində geniş yayılan boyalı keramika başlıca olaraq Dalma boyalıları adlandırılmışdır. Araşdırmalar Dalmatəpə yaşayış yerinin ilk təbəqəsinin boyalı keramika ilə xarakterizə olunduğunu, Dalma tipli basmanaxışlıları isə sonra yayıldığı müəyyən edilmişdir (Hamlin, 1975, s. 111-127). Dalmatəpə yaşayış yerinin alt təbəqəsində aşkar olunan boyalı keramika Xalaf-Ubeyd mədəniyyəti ilə əlaqələndirilmişdir. Araştırmalar bu dövrdə Yaxın Şərq ölkələri ilə əlaqələrin intevsivləşdiyini göstərir. Naxçı-

vantəpə yaşayış yerində Dalmatəpə mədəniyyətinin ortaya çıxması da bunu təsdiq edir. Ancaq Cənubi Qafqaz və Yaxın Şərq ölkələri arasındakı əlaqələrlə bağlı oldukca müxtəlif fikirlər söylənmişdir. Lakin bu bölgələr arasındakı iqtisadi-mədəni əlaqələrinin necə baş verdiyi tam olaraq aydınlaşdırılmamışdır. Tədqiqatçıların fikrinə görə Dalmatəpə mədəniyyətinin yayılması ticarət, mübadilə, maddi nemətlərin daşınması, miqrasiya və digər mədəniyyətlərin xüsusiyyətlərinin yayılması ilə bağlı olmuşdur (Tonoike, 2012, s. 65-80). Bu baxımdan A.Özfırat və K. Marronun fikirləri diqqətçəkicidir. Onların fikrinə görə, Yaxın Şərq köçmənləri getdikləri yerlərdə koloniyalar yaratmışlar (Özfırat & Marro, 2007, s. 1-20). Bu koloniyalar qonşu tayfalarla mübadiləyə və iqtisadi-mədəni əlaqələrin inkişafına kömək etmişdir. Van gölü hövzəsindəki Tilkitəpə yaşayış yeri bu tip koloniyalardan olmuşdur. Düşünürük ki, bənzər hadisələr Cənubi Qafqazda da olmuşdur. Bu baxımdan deyə bilərik ki, Naxçıvantəpə yaşayış yeri Cənubi Qafqazda Dalmatəpə mədəniyyətinin əsas istinad nöqtələrindən biri olmuş, Yaxın Şərq mədəniyyəti ənənələrinin şimala ötürülməsində mühüm rol oynamışdır. Uçan Ağıl (Baxşəliyev, 2022b, şəkil 2) və Qodedzorda (Chataigner və d., 2006, s. 397-398, fig. 23.6) basmanaxışlı və boyalı keramikanın tapılması Dalmatəpə mədəniyyətinin şimala doğru yayıldığını göstərir. Qodedzor yaşayış yerindən aşkar olunan boyalı keramikanın tədqiqatçılar tərəfindən Ubeyd mədəniyyəti ilə bağlanması da (Chataigner və d., 2006, s. 395, fig. 23.3, b) bunu təsdiq edir. Qeyd etdiyimiz kimi, Naxçıvantəpə yaşayış yerinin keramikasında da Ubeyd mədəniyyətinin təsiri özünü göstərir (Бахшалиев və d., 2024, s. 10-14). Naxçıvantəpə, Uçan Ağıl və Bülövqayada Ubeyd tipli kimi Ubeyd tipli keramikanın aşkar olunması Yaxın Şərq ölkələri ilə yaxın əlaqələrin olduğunu təsdiq edir. Ancaq Bülövqayada Naxçıvantəpə və Dalmatəpə üçün xarakterik olan basmanaxışlı keramikanın aşkar olunmamamışdır. Bülövqaya keramikası Dalmatəpə keramikasından bir formasına və tipoloji özəlliklərinə görə də fərqlidir. Buna görə də belə hesab edirik ki, biz Bülövqayada Dalma mədəniyyətindən fərqli bir mədəniyyətin ortaya çıxması ilə üz-üzəyik. Bu mədəniyyət Ubeyd mədəniyyətinin təsiri ilə formalaşmışdır. Bülövqayada *cream-bowls* tipi kasaların tapılması Ubeyd mədəniyyətini Dalmatəpə mədəniyyəti vasitəsi ilə deyil, müstəqil olaraq yayıldığını göstərir. E.ə. V minilliyə aid bəzi yaşayış yerlərində, o cümlədən Uçan Ağıl, Uzunoba və Urmiya hövzəsinin bəzi abidələrində boyalı keramikanın yayılması, lakin Dalmatəpə üçün xarakterik basmanaxışlıların bu yaşayış yerlərində tapılmaması bu dövrdə yeni mədəniyyət ənənələrinin formalaşdığını göstərir (Бахшалиев və d., 2024, s. 18). Fikrimizə görə bu ənənələr Ubeyd mədəniyyətinin təsiri ilə bağlı idi.

**Nəticə**

Naxçıvanın Eneolit yaşayış məskənlərinin tədqiqi göstərir ki, e. ə. VI minilliyin sonu və V minilliyin əvvəlində Yaxın Şərqlə iqtisadi-mədəni əlaqələr artmış, Naxçıvanın Eneolit mədəniyyətinə Yaxın Şərq sivilizasiyalarının böyük təsiri olmuşdur. Naxçıvanın Eneolit mədəniyyətlərində Xalaf-Übeyd ənənələrinin izi də bu qarşılıqlı təsirin nəticəsidir. Araşdırmalar göstərir ki, bu təsirlər təkcə mədəni əlaqələri ilə deyil, Yaxın Şərqdə yaşayan tayfaların şimala doğru hərəkət edərək Cənubi Qafqazda məskunlaşması ilə də bağlıdır. Uçan Ağıl və Naxçıvantəpədə Ubeyd tipli boyalı keramika məmulatlarının tapılması da bununla bağlıdır. Ubeyd tayfalarının şimala doğru hərəkəti sayəsində Urmiya hövzəsi ilə Şərqi Anadolunun qovşağında Dalmatəpə sivilizasiyasından fərqli bir sivilizasiya meydana gəlmişdi. Bülövqaya yaşarış yerinin tapıntıları bu mədəniyyətin Naxçıvanı da əhatə etdiyini göstərir. Arxeoloji tədqiqatlar Bülövqayada məskunlaşan tayfaların köçəri heyvandarlıq, və mədənçiliklə məşğul olduqlarını göstərir. Bülövkaya tapıntıları arasında öz forması və dekorativ motivləri ilə seçilən sadə və boyalı qablar Dalmatəpə mədəniyyətindən fərqlənməklə yanaşı, həm də Ubeyd mədəniyyətinin təsirini daşıyır. Digər tərəfdən, ərazidə aparılan geniş qazıntılara baxmayaraq, Bülövqayada basmanaxışlı keramikaya rast gəlinməmişdir. Bu da onu deməyə əsas verir ki, Bülövqaya keramikası Dalmatəpə mədəniyyəti ilə eyniləşdirilə bilməz. Bülövkayada inkişaf edən mədəniyyət Ubeyd mədəniyyətindən təsirlənən müstəqil bir mədəniyyət idi. Arxeoloji tədqiqatlar göstərir ki, eramızdan əvvəl VI-V minillik-

lərdə Mesopotamiya və Urmiya hövzəsindəki yaşayış məskənlərində Cənubi Qafqazdan obsidiandan istifadə artmışdır. Bu kontekstdə iddia etmək olar ki, bu mədəniyyətə mənsub tayfaların Naxçıvana köçü Cənubi Qafqazın zəngin xammal ehtiyatları, xüsusən də obsidian və bol otlaqları ilə bağlı olmuşdur.

## ƏDƏBİYYAT

Абибуллаев, О. А. *Энеолит и бронза на территории Нахичеванской АССР*. Баку 1982.

Abedi, A.,, Khatib Shahidi, H., Chataigner, Ch., Niknami, K., Eskandari, N., Kazempour, M., Pirmohammadi, A., Hoseinzadeh, J., Ebrahimi, Gh. "Excavation at Kul Tepe of (Jolfa), North-Western Iran, 2010: First Preliminary Report". *Ancient Near Eastern Studies*, 2014a, 51, 33-165.

Abedi, A., Eskandari, N., Shahidi, H., Sharahi, İ. "New Evidence from Dalma and Kura-Araxes Culture at Tapeh Qal'e-ye-Sarsakhti", *Iran and the Caucasus*, 2014b, 18, 101-114.

Abedi, A., Omrani, B., Karimifar, A. "Fifth and fourth millennium BC in north-western Iran:Dalma and Pisdeli revisited", *Documenta Praehistorica*, 2015, XLII, 321-338.

Abedi, A., Varoutsikov, B., Chataigner, Ch. "Provenance of obsidian artifacts from the Chalcolithic site of Dava Göz in NW Iran using portable XRF", *Journal of Archaeological Science Reports*, 2018, 20, 756-767.

Akkermans, P. "A Late Neolithic and Early Halaf Village at Sabi Abyad, Northern Syria", *Paléorient*, 1987, 13, 1, 23-40.

Akkermans, P.. "The Prehistoric Pottery of Tell Sabi Abyad. Excavations at Tell Sabi Abyad", *Prehistoric investigations in the Balikh Valley, Northern Syria*, Oxford, 1989, 77-214.

Alden, J., Minc L., Buehlman-Barbeau, S., Stein, G. "Dalma ceramics at Surezha in the Erbil Plain: Stylistic, compositional, and petrographic evidence for trans-Zagros interaction during the Terminal Ubaid/Late Chalcolithic 1", *Journal of Archaeological Science Reports,* 2021, 39, 1, 1-23.

Amirov, Sh.. "The Morphology Of Halafian painted pottery From Yarim Tepe II, And The Process of Ubaidian Acculturation", *II Workshop on Late Neolithic Ceramics in Ancient Mesopotamia: pottery in context, Monografies del MAC 1.* Ed. Anna Gómez-Bach, Jörg Becker and Miquel Molist, Barcelona, 2018, 15-23.

Ахундов, Т. "Неолит Южного Кавказа", *Antiquities of East Europe, South Asia and South Siberia in the Context of Connections and Interactions within the Eurasian Cultural Space (new data and concepts) proceedings of the international conference (St. Petersburg, November 18–22, 2019)*, St. Petersburg, 2019, 97-100.

Baxşəliyev, V. *Naxçıvanda 2018-ci ilin arxeoloji tədqiqatları*. Naxçıvan, 2019b.

Baxşəliyev, V. "Uçan Ağılda arxeoloji araşdirmalar", *AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri*, 2022b, № 3, 81-89.

Bahşaliyev, V.B., Ceylan N., Bahşaliyev, V., Hasanova, H., Memmedova, Z. "Ubeyd Külterü'nün Güney Kafkasya'ya yayılımı ile ilişkili yeni veriler", *TUBA-AR*, 2024, 35, 35-50.

Бахшалиев, В.Б. "Исследование энеолитических памятников Сирабчайской и Нахчыванчайской долин", *Problems of the Archaeology of the Caucasus and Near East. Neolithic - Late Bronze Age*. Baku, Институт археологии и этнографии, 2017, 108-121.

Бахшалиев, В.Б. "Археологические исследования поселения Нахчывантепе", *Российская археология*, 2019a, № 2, 114-128.

Бахшалиев, В. "Археологические раскопки на поселении Кюльтепе I", *Российская археология*, № 2, 2022a, 139-152.

Бахшалиев, Э., Бахшалиев, В. "Неолитический слой поселения Нахчыван Тепе", *Российская археология*, № 2, 2021, 187-197.

Бахшалиев, Э., Бахшалиев, В. Неолитический слой поселения Нахчыван Тепе. *Российская археология*, 2021, 2, 187-197.

Бахшалиев, В., Маро, К., Бертон, Р., Оранж, М. "Новые данные о связах древних поселенцев Нахчывана с Ближним Востоком", *Российская археология*, 2024, № 1, 7-21.

Bakhshaliyev, V., Bakhshaliyev, E. *Origin of Dalma Tepe Culture*, Nakhchivan, 2023.

Bakhshaliyev, V. "Archaeological investigations at Nakhchivan Tepe", *On salt, copper and gold: the beginnings of early mining and metallurgy in the Caucasus, Archéologie (s)*, 2021, 5, 375-386.

Bakhshaliyev, V., Ceylan, N., Bakhshaliyev, E., Hasanova, H., Memmedova, Z. "An Ubaid Settlement in the South Caucasus-Bülövkaya (Nakhchivan, Azerbaijan)", *AMİSOS*, 2025, cilt 10, sayı 18, 13-32.

Barge, O., Azizi Kharanaghi, H., Biglari, F., Moradi, B., Mashkour, M., Tengberg, M., Chataigner, Ch. "Diffusion of Anatolian and Caucasian obsidian in the Zagros Mountains and the highlands of Iran: Elements of explanation in 'least cost path' models", Quaternary International, 2018, 467, 297-322

Balossi-Restelli, F. "The beginning of the Late Chalcolithic occupation at Arslantepe, Malatya", *After the Ubaid. İnterpreting chang from the Caucasus to Mezopotamia at the dawn of urban civilization (4500-3500 BC), Papers from The Post-Ubaid Horizon in the Fertile Crescent and Beyond. International Workshop held at Fosse use, 29th June-1st July 2009*, Ed. Marro, C., 2012, 27, 235-260.

Chataigner, C., Avetisyan, P., Palumbi, G., Uerpmann, H.P. "Godedzor, a Late Ubaid-related Settlement in the Southern Caucasus", *Beyond the Ubaid transformation and integration in the late Prehistoric societies of the Middle East. Edited by Robert A. Carter and Graham Philip Papers from the Ubaid expansion? Conference held at Durham, 20–22 april 2006*, 391-409

Campbell, S., Fletcher, A. "Questioning the Hala-Ubaid Transition", *Beyond the Ubaid. Transformation and integration in the late Prehistoric societies of the Middle East. İnternational Workshop held at Grey College, University of Durham, 20–22 april 2006.* Eds. Robert A. C., Graham, Ph., 2012, 69-83.

Caneva, I., Palumbi, G., Pasquino, A. "The Ubaid impact on the pottery: Mersin-Yumuktepe during the fifth millennium BC", *After the Ubaid. İnterpreting chang from the Caucasus to Mezopotamia at the dawn of urban civilization (4500-3500 BC)*, Ed. Marro C., 2012, 353-392.

Çilingiroğlu, Ç. "The Appearance of Impressed Pottery in the Neolithic Aegean and Its Implications for Maritime Networks in the Eastern Mediterranean", *TUBA-AR*, 13, 2010, 9-22.

Davidson, T. E. Watkins, T. "Two Seasons of Excavation at Tell Aqab in the Jezirah, N.E. Syria". *Iraq*, 1981, 43, 1, 1–18.

Esin, U. "Değirmentepe (Malatya) Kurtarma Kazısı 1983 Yılı Raporu", *VI Kazı Sonuçları Toplantısı*, 1984, 11-30.

Esin, U., Arsebuk, G. "Tepecik ve Tülintepe kazısı 1971", *Keban Projesi 1971 Çalışmaları*, 1974, 111-159.

Esin, U., Arsebük, G. "Tülintepe kazısı 1974", *Keban Projesi 1974-1975 Çalışmaları*, 1982, 79-98, 119-134.

Esin, U., Arsebük, G. "1982 Yılı Değirmentepe (Malatya) Kurtarma Kazısı", *V Kazı Sonuçları Toplantısı*, 1983, 71-80.

Hamlin, C. "Dalma Tepe", *Iran*, 1975, 13, 111-127.

Henrickson, E.F. *Ceramic styles and cultural interaction in the Early and Middle Chalcolithic of the Central Zagros, İran. A Thesis submitted in conformity with the requirwmwnts for the degree of Doctor of philosophy in the University of Toronto*, 1983.

Henrickson, E. F., Vitali, V. "The Dalma Tradition: Prehistoric Inter-Regional Cultural Integration Highland Western Iran", *Paleorient*, 1987, 13, 2, 37-45.

Jasim, S.A. *Excavation at Tell Abada, Iraq*. Chicago, 2021.

Mallowan, M. E. L., Cruikshank, J. R.. "Excavations at Tall Arpachiyah," *Iraq*, 1933, 1935, vol. 2, 1, 1-178.

Массон, В.М. *Средняя Азия и Древний Восток*. Москва-Ленинград, 1964.

Marro, C. "Upper-Mesopotamia and Transcaucasia in the Late Chalcolithic period (4000-3500 BC)". Bertille Lyonnet (Ed.). *Les cultures du Caucase (VI$^{e}$-III$^{e}$millenaires avant notre ere). CNRS EDUTIONS*, Paris, 2007, 77-94.

Marro, C. "The View from the North. The Emergence and Spread of the Chaff-Faced Ware Oikumenè as Seen from the Caucasus (ca. 4600-3500 BCE)", *Paléorient*, 2021, vol. 48,1, 111-130.

Merpert, N. Y., Munchaev, R. M. "The Earliest Levels at Yarim Tepe I and Yarim Tepe II in Northern", *Iraq*, 1987, 49, 1-36.

Orange, M., Bakhshaliyev, V., Berthon, R., Marro, C., Bourdonnec, F. L. "Polysource Procurement at Nakhchivan Tepe (Azerbaijan, Chalcolithic)", *First Insights Into The Obsidian Consumption Patterns of a Dalma Site Recently discovered in the Southern Caucasus*, Eds. Katalin T. BIRÓ and András MARKÓ, Budapesht, 2021, 121-132.

Özdoğan, M. "Neolithic Sites in the Marmara Region Fikirtepe Pendik Yarımburgaz Toptepe Hoca Çeşme and Aşağı Pınar", *The Neolithic in Turkey*, 5, İstanbul, 2013, 167-269.

Özfırat, A., Marro, C. "2004 Yılı Van, Ağrı ve İqdır İlleri Yüzey Araştırması", *Türk Arkeoloji ve Etnografi Dergisi*, 2007, 7, 1-20.

Roaf, M. The Hamrin Sites. *In Fifty Years of Mesopotamian Discovery.* J. Curtis (Ed.). The British School of Archaeology in Iraq, 1982, 40–47.

Stein, G. "Local Identities and Interaction Spheres: Modeling Regional Variation in the Ubaid Horizon", *Beyond the Ubaid transformation and integration in the late Prehistoric societies of the Middle East. Edited Beyond the Ubaid. Transformation and integration in the late Prehistoric societies of the Middle East. İnternational Workshop held at Grey College, University of Durham, 20–22 april 2006*, 2012, 23-44.

Tonoike, Y. "Petrographic Analysis of the 6th Millennium B.C. Dalma Ceramics from Northwestern and Central Zagros", *İranian Journal of Archaeologıcal Studies*, 2012, 2, 2, 65-80.

Tekin, H. "Halaf: Mezopotamya'nin "gizemli" neolitik seramiği", *Azərbaycan Arxeologiyası,* 2018, cild 21, 1, 55-69

Voigt, M.M. "Relative and Absolute Chronologies for Iran between 6500 and 3500 Cal BC", *Chronologies in the Near East*, Eds. Aurenche O., Evin J., F. Hours. BAR İnternational Series, 1987, 615-646.

**Summary**

**Veli Bakhshaliyev, Elmar Bakhshaliyev**

**New Facts Related to the Spread of the Ubaid Culture to the North**

Ubaid-style pottery uncovered during research on South Caucasian settlements confirms the existence of economic and cultural relationship with Near Eastern countries. While findings at Tülintepe, Değirmentepe, and other settlements in Eastern Anatolia confirm the westward expansion of the Ubaid culture, its northward expansion into the South Caucasus remains poorly clarified. The means by which contacts with the Near East were made are also unclear. While it is thought that the Ubaid culture spread primarily during the Ubaid 3rd and Ubaid 4th periods, very little of the painted pottery that spread to the Urmia Basin during the Dalma Tepe period has been attributed to the Ubaid culture, and most of the painted pottery has been identified as Dalma painted. However, research on the Dalma Tepe culture demonstrates that the Ubaid culture exerted a significant influence on this civilization. The discovery of Ubaid-style pottery during research at settlements such as Uçan Ağıl, Nakhchivan Tepe, and Bülövkaya in Nakhchivan confirms the northward expansion of the Ubaid culture. The influence of the Ubaid culture is particularly evident in the shapes and decorative motifs of the painted pottery found at Bülövkaya. Archaeological research indicates that economic and cultural relations with Near Eastern countries and migrations played a significant role in the formation of Chalcolithic cultures in Nakhchivan. The absence of Dalma Tepe-type impressed pottery from some settlements in the Urmia Basin and at Bülövkaya confirms the emergence of a culture distinct from the Dalma Tepe culture in this region and provides new information about the northward expansion of this culture.

***Keywords:*** *Near East, South Caucasus, Azerbaijan, Nakhchivan, Dalma Tepe, Ubaid Culture.*

## Резюме

**Вели Бахшалиев, Эльмар Бахшалиев**

### Новые факты, связанные распространением Убейдской культуры на север

Керамика убейдского типа, обнаруженная в ходе исследования поселений Южного Кавказа подтверждает существование экономических и культурных связей со странами Ближнего Востока. Хотя находки в поселениях Восточной Анатолии, таких как Тулинтепе и Дейирмантепе, подтверждают распространение убейдской культуры на запад. Распространение этой культуры на север, в сторону Южного Кавказа, изучено недостаточно. Также не совсем ясно, каким образом осуществлялись связи с Ближним Востоком. Исследователи считают, что убейдская культура распространялась главным образом в периоды Убейдской 3 и Убейдской 4 культур. При этом небольшая часть расписной керамики, распространенной в период Далма-Тепе в бассейне Урмии, была отнесена к убейдской культуре, а большая часть расписной керамики была идентифицирована как далматепинские расписные. Однако изучение культуры Далма-Тепе показывает, что убейдская культура оказала определенное влияние на эту цивилизацию. Обнаружение керамики убейдского типа при изучении таких поселений, как Учан-Агыл, Нахчыван Тепе и Буловгая в Нахчыване, подтверждает распространение убейдской культуры на север. Влияние убейдской культуры особенно отчетливо ощущается в форме и узорах расписной керамики, обнаруженной в поселении Буловгая. Археологические исследования показывают, что экономико-культурные связи и миграции сыграли важную роль в формировании энеолитических культур в Нахчыване. Отсутствие тисненой керамики далматепинского типа в некоторых поселениях Урмийского бассейна и в Буловгае подтверждает, что в этом регионе сформировалась культура, отличная от далматепинской и раскрывает новые факты о распространении этой культуры на север.

***Ключевые слова:*** *Южный Кавказ, Ближний Восток, Нахчыван, Убейдская культура, расписная керамика.*